AcademyGate Publishing
p-ISSN 2790-0029; e-ISSN 2790-0037

# THE BATTLE OF ARMAGEDDON IN CHRISTIAN ESCHATOLOGY

**Leylakhanim Malikova**[1]
**Aladdin Malikov**[2]

**UDC:** 236; 291.21
**LBC:** 86.24
**HoS:** 51
**DOI:** 10.33864/2790-0037.2025.v6.i1.92-100

**Keywords:**

Armageddon, Christ, Millennium, Antixrist, Satan, Israelites, Jerusalem

## ABSTRACT

There are various concepts that are accepted as symbols of the struggle between good and evil in the world. One of these is Armageddon. Detailed information about Armageddon is available in the Bible. According to Christians, the Battle of Armageddon is the final battle between the forces of good and evil in the world. The article discusses which forces will participate in Armageddon and what the consequences will be. There have also been wars and political changes in various periods of history that have been associated with Armageddon. The site of the battle of Armageddon is thought to be Megiddo. There is various information about this region in history. The city of Megiddo has been the centre of many wars.

The Battle of Armageddon has been identified with many events in history. This is mainly due to the interpretation of biblical information by researchers. The Bible does not clearly state when the battle of Armageddon will take place. Although there are different estimates in the Christian world, none of them gives a precise date.

[1] Master's student in the specialty "History of Religions" at the Azerbaijan Institute of Theology; Baku, Azerbaijan (corresponding author)
E-mail: leyla.xanim.2020@gmail.com
https://orcid.org/0009-0009-4649-7108
[2] Doctor of Philosophy in Philosophy, Associate Professor,
AcademyGate Publishing (ISNI: 0000000514175052); Baku, Azerbaijan
E-mail: aladdin.malikov@gmail.com
https://orcid.org/0000-0001-5830-6764
https://isni.org/isni/0000000514199177

**To cite this article:** Malikova, L., & Malikov, A. [2025]. The Battle of Armageddon in Christian Eschatology. *History of Science journal, 6*(1), pp.92-100.
https://doi.org/10.33864/2790-0037.2025.v6.i1.92-100

***Article history:***
*Received: 06.11.2024*
*Accepted: 28.02.2025*

**Copyright:** © 2025 by AcademyGate Publishing. This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

AcademyGate Publishing
p-ISSN 2790-0029; e-ISSN 2790-0037

# XRİSTİAN ESXATOLOGİYASINDA ARMAGEDDON DÖYÜŞÜ

**Leylaxanım Məlikova**[1]
**Ələddin Məlikov**[2]

**UOT:** 236; 291.21
**KBT:** 86.24
**HoS:** 51
**DOI:** 10.33864/2790-0037.2025.v6.i1.92-100

**Açar sözlər:**

Armageddon, Məsih, Millenium, Antixrist, Şeytan, İsrailoğulları, Qüds

## ANNOTASİYA

Dünyada xeyir və şərin mübarizəsinin simvolu olarq qəbul olunan müxtəlif anlayışlar mövcuddur. Bunlardan biri də Armageddon olaraq adlandırılır. Armageddon barədə təfsilatlı məlumat Müqəddəs kitabda mövcuddur. Xristianlara görə, Armageddon müharibəsi dünyada xeyr və şər qüvvələr arasında baş verəcək son müharibədir. Məqalədə Armageddonda da hansı qüvəllərin iştirak edəcəyindən, nəticənin nə olacağından bəhs olunur. Bunlarla yanaşı tarixin müxtəlif dövrlərində Armageddonla eyniləşdirilmiş müharibələr, siyasi dəyişikliklər qeyd olunmuşdur. Armageddon döyüşünün baş verəcəyi ərazi isə Megiddo olaraq qəbul olunur. Bu ərazi barədə tarixdə müxtəif məlumatlar mövcuddur. Megiddo şəhəri bir çox müharibənin mərkəzi olmuşdur.

Armageddon döyüşü tarixdə baş vermiş bir çox hadisə ilə eyniləşdirilir. Bunun əsas səbəbi araşdırmaçıların Müqəddəs kitabdakı məlumatlara etdikləri şərhlərlə bağlıdır. Armageddon döyüşünün baş verəcəyi zaman isə Müqəddəs kitabda açıq şəkildə verilməyib. Bu barədə xristian dünyasında fərqli təxminlər olsa da, heç biri dəqiq tarixi ifadə etmir.

[1] Azərbycan İlahiyyat İnstitutunun “Dinlər tarixi” itisası üzrə magistrantı; Bakı, Azərbaycan (məsul müəllif)
E-mail: leyla.xanim.2020@gmail.com
https://orcid.org/0009-0009-4649-7108
[2] Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent,
“AcademyGate Publishing”-in elmi tədqiqatçısı (ISNI: 0000000514175052); Bakı, Azərbaycan
E-mail: aladdin.malikov@gmail.com
https://orcid.org/0000-0001-5830-6764
https://isni.org/isni/0000000514199177
**Məqaləyə istinad:** Məlikova, L., & Məlikov, Ə. [2025]. Xristian esxatologiyasında Armageddon döyüşü. *History of Science jurnalı,* *6*(1), səh.92-100.
https://doi.org/10.33864/2790-0037.2025.v6.i1.92-100

***Məqalənin tarixçəsi:***
*Məqalə redaksiyaya daxil olmuşdur: 06.11.2024*
*Təkrar işlənməyə göndərilmişdir: 09.12.2024*
*Çapa qəbul edilmişdir: 28.02.2025*

**Copyright:** © 2025 by AcademyGate Publishing. This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

# БИТВА АРМАГЕДДОНА В ХРИСТИАНСКОЙ ЭСХАТОЛОГИИ

**Лейлаханум Маликова**[1]
**Аладдин Маликов**[2]

**УДК:** 236; 291.21
**ББК:** 86.24
**HoS:** 51
**DOI:** 10.33864/2790-0037.2025.v6.i1.92-100

**Ключевые слова:**

Армагеддон, Мессия, Тысячелетие, Антихрист, Сатана, израильтяне, Иерусалим

## АННОТАЦИЯ

В мире существуют различные концепции, которые принимаются как символы борьбы добра со злом. Один из них называется Армагеддон. Подробная информация об Армагеддоне доступна в Библии. По мнению христиан, война Армагеддон — это последняя война, которая произойдет в мире между силами добра и зла. В статье обсуждается, какие силы примут участие в Армагеддоне и каков будет его исход. Кроме того, в различные периоды истории отмечались войны и политические изменения, отождествляемые с Армагеддоном. Местом, где произойдет битва Армагеддон, считается Мегиддо. В истории имеются различные сведения об этой местности. Город Мегиддо был центром многих войн.

Битва при Армагеддоне отождествляется со многими событиями в истории. Основная причина этого кроется в интерпретациях, которые исследователи дали информации из Библии. В Библии прямо не указано, когда произойдет битва Армагеддон. Хотя в христианском мире существуют разные оценки по этому поводу, ни одна из них не указывает точную дату.

[1] Магистрант по специальности «История религий» Азербайджанского Института Теологии; Баку, Азербайджан (ответственный автор)
E-mail: leyla.xanim.2020@gmail.com
https://orcid.org/0009-0009-4649-7108
[2] Доктор философии по философии, доцент,
AcademyGate Publishing (ISNI: 0000000514175052); Баку, Азербайджан
E-mail: aladdin.malikov@gmail.com
https://orcid.org/0000-0001-5830-6764
https://isni.org/isni/0000000514199177

**Цитировать статью:** Маликова, Л., & Маликов, А. [2025]. Битва Армагеддона в христианской эсхатологии. *Журнал History of Science*, *6*(1), с.92-100.
https://doi.org/10.33864/2790-0037.2025.v6.i1.92-100

***История статьи:***
*Статья поступила в редакцию: 06.11.2024*
*Отправлена на доработку: 09.12.2024*
*Принята для печати: 28.02.2025*

**Copyright:** © 2025 by AcademyGate Publishing. This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

## *1.Giriş*

Armageddon döyüşü Xristian esxatologiyasında yer tutan əsas inanclardan biridir. Xeyir və şər arasında baş verəcək olan bu mübarizənin adı Müqəddəs kitabda bir dəfə keçsədə, ədəbiyyatlarda tez-tez qarşılaşılan bir termindir. Tarixdə baş vermiş bir çox döyüşlər Armageddonla eyniləşdirilmiş, dünyada olan müharibələrin artması Armageddonu daha aktual hala gətirmişdir. Məsələn, I Dünya Müharibəsindən sonra I Dünya Müharibəsini bəşəriyyətin son müharibəsi kimi təsvir edən "Məhşərin Dörd Atlısı" adlı kinofilm çəkilmişdir. Bu kontekstdə araşdırmaçılar tərəfindən çoxlu kitablar yazılmışdır. Armageddon Müqəddəs Kitabı öyrənən hər bir insanın təxəyyülünü ələ keçirən bir hadisədir və təbii ki, bu hadisə haqqında çoxlu fikirlər söylənmişdir. [1, s.2]

Armageddon döyüşünün təsviri Müqəddəs kitabın Vəhy bölməsində verilmişdir. Həmin təsvirə bənzər döyüşlər tarixdə və digər dini inanclarda da mövcuddur. Məsələn, Hz. Peyğəmbərə aid edilən bəzi hədislərə görə qiyamətə yaxın bir dövrdə Hz. İsa yenidən yer üzünə enəcək və Dəccalla döyüşəcəkdir. Müsəlmanlar bu müharibədə qalib gələcək, Dəccal isə Həz. İsa tərəfindən öldürüləcəkdir. [7, s.75] Digər bir bənzər təsvir Ölü dəniz əlyazmaları arasında olan "Müharibə kitabçaları"nda keçir. Mənbəyə görə işıq oğulları ilə zülmət oğulları arasında baş verəcək bu müharibədə ilk hücum işıq oğullarından gələcəkdir. Qaranlığın oğulları və ya şeytanın əsgərləri olaraq xarakterizə edilən qrup arasında, başda Dəccal olaraq xarakterizə edilən Belial olmaqla, demək olar ki, bütün İsraillilərin düşmənlərindən bəhs edilir. Bu tarix həm Tanrı xalıq üçün nicat vaxtı, həm də bütün dünya xalqları üçün nicat vaxtıdır. Şeytan və onun bütün ardıcılları bu müharibədə məhv olurlar. Bundan sonra "işıq oğulları" üçün xoşbəxtlik və əmin-amanlıq dövrü başlayır. [2, s.318] Bütün bunlar sonda xeyrin şər üzərində qələbə çalacağının xəbərçisidir. Xristianığıa görə hal-hazırda Şeytan insanlar üzərində təsiretmə gücünə malikdir. Bu Armagedonla başa çatacaq, Tanrının müdaxiləsi nəticəsində Məsihin gəlişi ilə Antixrist və onun tərəfdarları məhv olacaq və millenium dövrü başlayacaqdır.

## *2.Armageddon müharibəsinin mahiyyəti*

Armageddon sözü Əhdi-Ətiqdə bir neçə böyük döyüşlərin yeri olan Megiddo bölgəsinə aid olan ibranicə "har megiddon" sözündən götürülmüşdür. Terminoloji mənası isə "Müqəddəs kitabda bildirilən dünyanın sonunda xeyir və şər qüvvələr arasında baş verəcək son döyüş, [Vəhy 16:16] həlledici münaqişədir. [14, s.1] Xristian esxatologiyasına görə Böyük Müsibətin sonunda böyük bir müharibə olacaq, dünyadakı bütün ordular müharibə üçün birləşəcəkdir. Bu, Rəbbin Günü termininin bir variantı olan "Uca Allahın günündə" baş verəcəkdir. [8, s.93]

Armageddon haqqında Müqəddəs Kitabda yalnız bir dəfə, Yəhyaya Vəhy və ya Müqəddəs Yəhyanın Apokalipsisində [16:16] bəhs edilir. ***"Onlar padşahları ibranicə Armageddon adlanan yerə topladılar."*** [Vəhy 16:16] Armageddon termini tez-tez protestant fundamentalistləri tərəfindən xeyir və şər qüvvələri arasında gözlənilən kataklizm mübarizəsinə istinad etmək üçün istifadə edilmişdir. O, həmçinin mümkün nüvə müharibəsini təsvir etmək üçün çox vaxt sülh fəalları tərəfindən məcazi mənada istifadə edilmişdir. [10, 04.11.2024]

Armageddon müharibəsi tarixin başlanğıcından bəri ən böyük və ən dəhşətli müharibə olacaqdır. Antixrist yer üzünün demək olar ki, bütün qoşunlarını toplayacaq və Məsihi qəbul etmiş olan Yəhudilərə qarşı mübarizəyə başlayacaqdırMüqəddəs Kitabın 2000 illik vəhylərinə görə, bütün ordular Məsihi qəbul etmiş yəhudilərə qarşı gələcəkdir. Ancaq nəticə gözləniləndən çox fərqli olacaq, çünki İsa Məsih özü gəlib xalqının düşmənlərini məğlub edəcəkdir. [13, s.70] O, bu dünyada mövcud olan üsyanı yatırmağa gələcəkdir. Onun gəlişinin məqsədlərindən və Armageddonun baş verməsinin səbəblərindən biri də bu gün insanların qəlbində üsyan olmasıdır. Üsyan əslində geri çəkilməkdədir, çünki Tanrının Ruhu şəri cilovlayır. Tanrının Ruhu Böyük Müsibət dövrü zamanı uzaqlaşdırıldıqda, bu dünyada

üsyan kütləvi şəkildə baş verəcəkdir. Birləşmiş Millətlər Təşkilatı Baş Assambleyasının keçmiş prezidenti Dr. Çarlz Malek deyib: ***“Əgər məndən Sovetin dialektik materializmi ilə Qərbin praktiki kommersiyaizmi arasında seçim etmək istənsəydi, Qərb brendini seçəcəyimə əmin deyiləm... Biz Məsihlə İblis arasında əbədi döyüşün getdiyi hissini itirmişik”.*** Armageddon isə bu üsyanın tamamlanmasıdır. Məsihin yerə qayıtması hər şeyi bitirir. Bu gün dünyada mübarizənin getdiyi hissini itirmişik. Bununla belə, işıqla qaranlıq, doğru ilə yanlış arasında, Tanrıyla Şeytan arasında, yaxşı ilə doğru ilə şərlə yanlış arasında gedən döyüş bu qüdrətli Armageddon Döyüşündə yekunlaşacaqdır. [11, 04.11. 2024]

Müqəddəsdə Kitabda Aramgeddon haqqında təfsilatlı məlumat əsasən Vəhy kitabında keçir: ***“Altıncı mələk öz camını böyük Fərat çayına boşaltdı. Gündoğandan gələn padşahların yolu hazırlansın deyə, çayın suları qurudu. Mən əjdahanın, vəhşi heyvanın və yalançı peyğəmbərin ağzından çıxan, qurbağaya oxşar üç murdar vəhy gördüm. Bu vəhylər cin vəhyləridir və əlamətlər göstərirlər. Onlar yer üzünün padşahlarının yanına gedib onları Qadir Allahın böyük günündə olacaq müharibəyə toplayırlar. «Budur, mən oğru kimi gəlirəm. Oyaq qalıb paltarını qoruyan xoşbəxtdir. Çünki o, çılpaq gəzməyəcək və insanların qarşısında biabır olmayacaq». Onlar padşahları ibranicə Armageddon adlanan yerə topladılar”.*** [Vəhy 16:12-16]

Burada da altıncı kərənayın [Vəhy 9:13-21] çaldığı zamanda olduğu kimi Fərat çayından danışılır. “Gündoğan” deyildikdə də çox güman uzaq şərq nəzərdə tutulur. Vəhy kitabının 9-cu bölümündə 200 milyonluq qoşundan söhbət açılır, lakin 200 milyonluq qoşunun şərqdən gələn bu ordu ilə eyni olub-olmaması sual altındadır. Ayədə işlədilən əjdaha, vəhşi heyvan və yalançı peyğəmbərlər ifadəsi Şeytan, Antixrist və yalançı peyğəmbərlərdir. Armageddon müharibəsindəki düşmən qüvvələr onlar olacaq və insanları ətraflarına toplayacaqlar, lakin nəticə gözləniləndən fərqli olacaqdır, çünki İsa Məsih özü gələrək xalqının düşmənlərini məğlub edəcəkdir. [13, s.74-75] Bu döyüş səmavi səltənətdəki Məsihlə yer üzündəki həqiqi ordu arasında baş verəcəkdir. Məsih sadəcə sözünü deyəcək və ona qarşı toplanmış yer üzünün orduları məhv ediləcəkdir. O, həmçinin Antixrist və yalançı peyğəmbəri birbaşa od gölünə göndərəcək, sonra Şeytan bağlanır və Məsihin min illik padşahlığı başlayacaqdır. [6, s.272]

Bu döyüş Əhdi-Ətiqdə Elişa peyğəmbərin öz qulluqçusu ilə birlikdə olduğu bir hadisəni xatırladır. Atlar və döyüş arabaları ilə dolu yer üzünün ordusu onların şəhərini mühasirəyə almışdı və Elişanın nökəri narahat idi***: “Ay ağam! Nə edəcəyik?" dedi. "Qorxma, çünki bizimlə olanlar onlarla olanlardan daha çoxdur." Sonra Elişa dua edib dedi: «Ya Rəbb, lütfən, onun gözlərini aç ki, görsün». Rəbb gəncin gözlərini açdı və gördü ki, Elişanın hər tərəfi dağ atlar və odlu döyüş arabaları ilə doldu”.*** [2 Padşahlar 6:15–17] Bu ordu Yer üzündə İsraili təhdid edən bir ordu olduğu halda, səmavi səltənətdə Allahın qüdrətli mələklərinin ordusu da var idi. Ordu İsrailə doğru irəliləyərkən Elişanın duası nəticəsində və Allah əsgərləri kor etmişdir. Həz. İsa da səmavi aləmdə onun ixtiyarında olan böyük mələk gücünə malik olduğunu iddia edirdi. İsa da, Elişa kimi, səmavi səltənətdə onun ətrafında hansı güclərin olduğunu bilirdi. Lakin İsa mələklərin o zaman müdaxilə etmələrini istəməmiş və çarmıxa çəkilərək özünü fəda etmişdir. Armageddon döyüşündə Məsih həqiqətən döyüşə müdaxilə edəcəkdir. Ölən müqəddəslərin ruhları da bu səmavi döyüşdə iştirak edəcəkdirlər, çünki onlar ***“incə kətan paltar geymiş, ağ və pak... ağ atların ardınca gedən səma ordusu”*** [Vəhy 19:14] kimi təsvir edilmişdir. [6, s.272-273]

Armageddon müharibəsinidə Antixristlə birlikdə İsrail xalqı ilə vuruşacaq xalq bəzən Qoq və Maqoqla eyniləşdirilir. Qoq və Maqoq, Müqəddəs kitabda sırasıyla, İsrailin və onların gəldiyi torpaqların kəhanət edilən işğalçısı; ya da Kitabi müqəddəsin Əhdi-Cədid bölməsində qeyd olunan Allahın xalqına qarşı çıxan şər qüvvələrdir. [5, 2024] Həmin xalqı Qoq və Maqoq xalqı adlandıranlara görə Şeytanın azdırdığı Qoq və Maqoq qövmü Armegaddon müharibələrinə səbəb olacaqdırlar. Armegeddon Qoq və Maqoqlarla qarşılaşma yeri olaraq Magedon bölgəsində baş verəcəkdir. Qiyamət yaxınlaşdıqda, Qüds

yaxınlığındakı Magedon adlı yerdə Antixristin rəhbərlik edəcəyi Qoq və Maqoq xalqı Armageddon döyüşnündə mübarizə apararaq bütün dünyada xaosa səbəb olacaqdırlar. Başlanacaq müharibədə hamı bir-birinə qılınc çəkəcək və nəticədə Rəbb Qoq və Maqoq ordusunu epidemiya və qanla cəzalandıracaqdır, [15, s.67] lakin Müqəddəs kitaba nəzər saldıqda həmin xalqla Qoq və Maqoq xalqının eyni olmadığı görünür. Vəhy kitabının 20:7-9 ayələrinə nəzər saldıqda görürük ki, Qoq və Maqoq xalqı (ehtimal ki, düşmən xalqları və ya Allahın düşmənlərini təmsil edirlər) Milleniumdan sonra Allahın xalqına hücum edəcəkdirlər. Bu o deməkdir ki, Qoq və Maqoqun bu hücumunun Böyük Müsibət, Allahın qəzəbi və ya Armageddon döyüşü ilə heç bir əlaqəsi yoxdur. [4, s.58] Vəhy kitabında [20:7-10] Qoq və Maqoq adları axır zamanda böyük mübarizədə Şeytanla birləşəcək şər qüvvələr üçün istifadə olunur. Şeytan 1000 il bağlanıb zəncirləndikdən sonra azad olacaq və Tanrıya qarşı qalxacaqdır; O, irəli gedəcək və yer üzünün xalqlarını – Qoq və Maqoq – onları aldadaraq, müqəddəslərə və Allahın sevdiyi şəhər olan Qüdsə hücum etmək üçün onları çoxlu sayda toplayacaqdır. Allah onları məhv etmək üçün göydən od göndərəcək, sonra isə son hökmə rəhbərlik edəcəkdir. [5, 2024]

Tanrının Armageddonda düşmən qüvvəni necə məhv edəcəyi barədə müxtəlif fikilər mövcuddur. ***“Biz insan silahları ilə yox, Allahın verdiyi və güclü istehkamları yıxmağa qadir olan silahlarla döyüşürük. Biz Allah haqqındakı biliyə qarşı çıxan hər cür fikri və maneəni aradan qaldırırıq, hər cür fikri əsir alıb Məsihə tabe etdiririk”.*** [2 Korinflilər 10:4-5] Bu mətn açıq şəkildə bildirir ki, bizim silahlarımız cismani deyildir. Buna nail olan silahlar iman, məhəbbət və Müqəddəs Ruhun gücüdür və biz bunlarla mübarizə aparırıq. Yenə Efeslilərə 6:12 ayəsində deyilir: ***“Çünki bizim mübarizəmiz qan və həyata qarşı deyil, hökmdarlara, hakimiyyətlərə, bu qaranlıq dünyanın hökmdarlarına, göylərdəki şər ruhlara qarşıdır”.*** Yuxarıda göstərilən eyni silahlar bu döyüşü yerinə yetirir və Əhdi-Cədid Yazılarında bunun dəyişdiyini göstərən heç bir hal yoxdur. [14, s.4]

Başqa bir fikrə görə isə Tanrı düşməni məhv etməkə üçün dolu, zəlzələ və ya ildırımdan istifadə edə bilər. [Eyyub 38:22, 23; 38:19-22] O, düşmənlərini bir-biri ilə vuruşmağa vadar edə bilər. [2 Tar. 20:17, 22, 23] O, həmçinin öz mələklərindən pisləri aradan qaldırmaq üçün istifadə edə bilər. [Yeşaya, 37:36] Yehova hansı üsuldan istifadə etməsindən asılı olmayaraq, mütləq qalib gələcəkdir. Allahın bütün düşmənləri məhv ediləcək, salehlərin hamısı isə xilas olacaqdır. [9, s.10]

Armageddon və ya qiyamət müharibəsinin dini mətnlərdən kənarda, xüsusən də siyasi həyatda istifadə olunması diqqət çəkən məqamlardan biridir. Çünki bu müharibə ilə bağlı nəzəriyyə və rəvayətlərə təkcə dini mətnlərdə və ya dindarlar arasında rast gəlinmir. Məsələn, müasir dövlət rəhbərlərinin də zaman-zaman bu anlayışlardan istifadə edərək təbliğat apardıqları görünür. Məsələn, ABŞ-ın keçmiş prezidentlərindən biri olan Ronald Reyqan 1971-ci ildə Liviyanın kommunizmə doğru dəyişməsi ilə bağlı verdiyi qiymətləndirmədə bu hadisəni Armageddonun çox da uzaqda olmadığına işarə kimi qəbul etdiyini bildirmişdir. 1976-cı ildə verdiyi müsahibədə oxşar ifadələr işlədən Reyqan 1980-ci ildə “biz Armageddon nəsliyik” demişdir. [2, s.324]

### *3.Armageddonun baş verəcəyi məkan və zaman*

Megiddo şəhəri Fələstinin Misirlə Suriyanı birləşdirən yolun üzərində yerləşən bir ərazidir. Yəqin ki, strateji mövqeyinə görə çoxlu hərbi toqquşmalara səhnə olduğu üçün belə bir döyüşün simvolu kimi seçilmişdir. Megiddo həm də Birinci Dünya Müharibəsi zamanı 1918-ci ildə mühüm döyüşün yeri idi. [10, 04.11.2024] Müqəddəs Yazılarda Megiddo təpəsinə, Megiddo vadisinə və Megiddo şəhərinə istinad edilir. Bu çox məşhur ərazi Yoşiyanın öldürüldüyü, Şaulun öldürüldüyü və Axazyanın öldürüldüyü yer olaraq bilinir. Yeşua kitabında Megiddo İsrailin Vəd edilmiş diyara gələndə ələ keçirdikləri şəhərlər arasında qeyd olunur. [10, s.4] Megiddoda və yaxınlıqdakı İzreel vadisində çoxlu döyüşlər getmişdir. Yehova bəzən orada gedən müharibələrə birbaşa müdaxilə etmişdir. Məsələn, o,

israilli hakim Baraka “Megiddo sularının yanında” kömək etmişdir. Beləliklə, Barak Sisera adlı sərkərdənin başçılıq etdiyi Kənan ordusunu məğlub etmişdir. Barak və Debora peyğəmbər bu möcüzəvi qələbəyə görə Yehovaya təşəkkür etmişdirlər. [9, s.9] Onlar oxuyurdular: Padşahlar gəldi, onlar döyüşdü. Sonra Kənan padşahları vuruşdu. Tanaqda, Megiddo suları yanında. Onlara qənimət gümüş düşmədi. Ulduzlar asimandan döyüşdü, Öz yerlərindən Sisara qarşı vuruşdu. Qişon çayı düşmənləri yuyub apardı.”. [Hakimlər 5:19-21]

Armageddon müharibəsinin nə zaman baş verəcəyi Müqəddəs kitabda açıq şəkildə ifadə olunmayıb, lakin əlamətləri, ondan əvvəl baş verəcək hadisələr təsvir olunub. Bu hadisə Allahın qəzəbinin sonuna yaxın və yeddinci mələk öz kasasını yer üzərinə (yeddinci bəlanı) tökməzdən bir müddət əvvəl baş verəcəkdir.

Kitabı Müqəddəsdə Armageddon döyüşündən bəhs edən digər hissə Vəhy kitabının 19:19-20 ayələridir. ***“Mən gördüm ki, vəhşi heyvan və dünya padşahları ilə qoşunları, atın belində oturanla və onun qoşunları ilə vuruşmaq üçün bir yerə toplaşıb. Vəhşi heyvan yaxalandı. Onun qabağında əlamətlər göstərib üzərində vəhşi heyvanın nişanı olanları və onun surətinə sitayiş edənləri yoldan çıxaran yalançı peyğəmbər də onunla birlikdə tutuldu. Onların ikisi də kükürdlə yanan alovlu gölə diri-diri atıldı”.*** [Vəhy, 19:19-20]

Bu kitabda Armageddon sözü istifadə olunmasada, orada canvar və yer üzündəki padşahların İsaya və Onun ordusuna qarşı müharibəyə toplaşdıqlarından bəhs olunur. Bu toplantı Allahın Qəzəbinin sonlarına doğru baş verəcəkdir. [4, s.58] Vəhy 16:15 ayəsindəki eyni hissə Armageddonun nə vaxt baş verəcəyinə işarə edir. İsa deyir ki, bu, “Mən oğru kimi gələcəyəm” vaxtı olacaqdır. İsa ikinci gəlişi ilə bağlı daha əvvəl eyni dildən istifadə etmişdir. [Matta 24:42-44] Həmçinin 1 Salonikililərə 5:1-4- də Armageddon aydın şəkildə ikinci gəlişi nəzərdə tutur. Bu, Müqəddəs Kitabda vacib bir mövzu olan İsanın yerə qayıtması zamanı baş verəcəkdir. [1, s.2, 04.11.2024]

Gördüyümüz kimi Müqəddəs kitabda Armegeddon döyüşünun nə zaman baş verəcəyi açıq şəkildə göstərilməyib, lakib bu məsələ barədə müxtəlif təxminlər xristianlar arasında mövcudfur. Məsələn, bəzən Birinci və İkinci Dünya Müharibələri Armageddon müharibəsi kimi qələmə verilmişdir. [15, s.67] Dünyanın sonu ilə bağlı təxinlərdən biri də Yehovanın Şahidlərinin qurucusu Çarlz Teyz Rassellə məxsusdur. O, Məsihin bədəndə deyil, ruhda diriləcəyini və öz səltənətini səmada quracağını, onun tezliklə yer üzünə enəcəyini, yalnız Yehovanın Şahidlərinin onu tanıyacağını və bu hadisənin ardınca Armageddon Döyüşü olacağını iddia etmişdir. Onun sözlərinə görə, bu müharibədə Yehovanın Şahidlərinə qarşı çıxan milyonlarla insan həlak olacaq, sonra 144 000 nəfərdən ibarət yeni cənnət və Yehovanın diriltdiyi başqa yerdən ibarət yeni yer yaranacaqdır. Onun iddiasına görə, Adəmin yaradılmasından 6000 il keçmişdi və buna görə də İsanın qayıdışı 1874-cü ildə baş verəcəkdir. Məsihin qayıdışından qısa müddət sonra dünya böyük bir yanğınla məhv olacaqdır. [3, s.178]

## *4.Nəticə*

Xristian esxatologiyasının əsas simvollarından biri olan Armageddon xeyr və şər arasında olan mübarizənin sonu olaraq qəbul olunur. Müqəddəs kitabda Armageddon adı yalnız bir dəfə, Vəhy kitabında keçsədə hər zaman aktual olmuş mövzulardan biridir. Bu döyüş nəticəsində xeyr şər üzərində qələbə qazanacaq və min illik padşahlıq qurulacaqdır. Xeyrin qələbəsinin simvolu olan Armageddon insanlar arasında ümid mənbəyi olaraq hər zaman inanc olaraq gücünü qorumuşdur. Tarix boyu dünyada baş vermiş dəhşətli müharibələrdən bəziləri Armageddonla eyniləşdirilmiş, bu mövzuda kitablar yazılmış, filmlər çəkilmişdir.

Armageddon müharibəsinin zamanı Müqəddəs kitabda açıq şəkildə bildirilməsədə bu barədə də xristianlar arasında müxtəlif təxminlərin olduğunun şahidi oluruq. Qəbul olunan əsas görüşə görə isə həmin hadisənin tarixnin bəlli olmaması, bunların sadəcə təminlərdən

ibarət olmasıdır. Xristianlara görə, burada əsas hissə hadisənin baş verəcəyi tarix yox, müharibədə xeyr tərəfdə olmağı bacarmaq, xilasa nail olmaqdır.

## *5.REFERENCES*


1. Barry, C. H. (2014, November 5). Armageddon - Why, When, Where? Retrieved from www.bibletruthrestored.org (In English)
2. Batuk, C. (2003). *Waiting for the end of history.* Iz Yayincilik, 360 pp. (In Turkish)
3. Biyik, M. (2007). Prophecies of the end of the world in Christian eschatology. *Marife Journal of Religious Studies, 7*(2), 163-188. (In Turkish)
4. Bowman, S. (2022). *End times: Putting the pieces in place.* Independently Published, 95 pp. (In English)
5. The Editors of Encyclopaedia Britannica. (2024, October 21). Gog and Magog. *Encyclopedia Britannica.* Retrieved from https://www.britannica.com/topic/Gog (Accessed: November 5, 2024). (In English)
6. Cangelosi, G. (2018). *God's endgame.* Citizens Chapel Press, Inc, 454 pp. (In English)
7. Gencturk, S. (2014). *The end times and apocalypse in divine religions.* Isparta, T.C. Suleyman Demirel University, 86 pp. (In Turkish)
8. Gibson, S. (2019). *Eschatology.* Shepherdes Global Classroom, 140 pp. (In English)
9. Gozcu Kulesi. (2019). Armageddon: Good news! *Gozcu Kulesi, 140*(12), 8-13. (In Turkish)
10. Lerner, R. E. (2023, November 17). Armageddon. *Encyclopedia Britannica.* Retrieved from https://www.britannica.com/place/Armageddon (Accessed: November 4, 2024). (In English)
11. McGee, J. V. (2017, December 7). Armageddon: What? Where? When? Retrieved from https://www.blueletterbible.org/comm/mcgee_j_vernon/ebooks/armageddon.cfm (Accessed: November 4, 2024). (In English)
12. *The Holy Book.* (n.d.). A.B.S.: Watchtower Bible and Tract Society of New York, 1732 pp. (In Azerbaijani)
13. Nuroglu, C. (2013). The end of the world. GDK Publishing, 116 pp. (In Turkish)
14. Wilson, B. O. (2016). *The battle of Armageddon.* Faith Publishing House, 22 pp. (In English)
15. Kiyak, A., & Tas, Y. (2022). Eschatological myths in Christianity. *Middle East and Migration, 12*(1), 49-76. (In Turkish)


## *ƏDƏBİYYAT*


1. Barry, C. H. (2014, November 5). *Armageddon - Why, When, Where?* Retrieved from www.bibletruthrestored.org
2. Batuk, C. (2003). *Tarihin sonunu beklemek*. İz Yayıncılık, 360 səh.
3. Bıyık, M. (2007). Hıristiyan eskatolojisinde dünyanın sonu kehanetleri. *Marife Dini Araştırmalar Dergisi, 7*(2), 163-188.
4. Bowman, S. (2022). *End times: Putting the pieces in place*. Independently Published, 95 səh.
5. The Editors of Encyclopaedia Britannica. (2024, October 21). Gog and Magog. *Encyclopedia Britannica*. Retrieved from https://www.britannica.com/topic/Gog (Accessed: November 5, 2024).
6. Cangelosi, G. (2018). *God's endgame*. Citizens Chapel Press, Inc, 454 səh.
7. Gençtürk, S. (2014). *İlahi dinlerde ahir zaman ve kıyamet*. Isparta, T.C. Süleyman Demirel Üniversitesi, 86 səh.
8. Gibson, S. (2019). *Eskatoloji*. Shepherdes Global Classroom, 140 səh.
9. Gözcü Kulesi. (2019). Armagedon: İyi bir haber! *Gözcü Kulesi*, 140(12), 8-13.
10. Lerner, R. E. (2023, November 17). Armageddon. *Encyclopedia Britannica*. Retrieved from https://www.britannica.com/place/Armageddon (Accessed: November 4, 2024).

**11.** McGee, J. V. (2017, December 7). *Armageddon: What? Where? When?* Retrieved from https://www.blueletterbible.org/comm/mcgee_j_vernon/ebooks/armageddon.cfm (Accessed: November 4, 2024).
**12.** *Müqəddəs Kitab.* (n.d.). A.B.Ş: Watchtower Bible and Tract Society of New York, 1732 səh.
**13.** Nuroğlu, C. (2013). *Dünyanın sonu*. GDK Yayınları, 116 səh.
**14.** Wilson, B. O. (2016). *The battle of Armageddon*. Faith Publishing House, 22 səh.
**15.** Kıyak, A., & Taş, Y. (2022). Hristiyanlıkta eskatoloji mitleri. *Ortadoğu ve Göç, 12*(1), 49-76.